# TÜRKİYƏ DƏYANƏT VƏQFİ BAKI TÜRK LİSEYİ
## VI və IX siniflərə şagird qəbulu elan edir.

TDV Bakı Türk Liseyi 2025-2026-cı tədris ili üçün VI və IX siniflərə şagird qəbulu elan edir. Lisey Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə bağlıdır. Ümumi orta təhsil məktəblərində tədris olunan dərs proqramına uyğun olaraq dərslər Azərbaycan dilindədir və təhsil ödənişsizdir.

**1) MÜRACİƏT MÜDDƏTİ VƏ QƏBUL ŞƏRTLƏRİ:**

Müraciətlər may ayının ***5-dən 30-dək*** I-V günlər saat ***10:00***-dan ***17:00***-a qədər, VI gün saat ***10:00***-dan ***16:00***-a qədər qəbul olunacaq. Liseyə 2024-2025-ci tədris ilində **V** və **VIII** sinifdə **oxuyan** şagirdlər müraciət edə bilərlər.

**2) TƏQDİM OLUNACAQ SƏNƏDLƏR:**

a) Şagirdin V və VIII sinifdə **oxuduğunu göstərən** və məktəbin **möhrü** ilə təsdiq olunmuş arayış *(**Möhür şəklin üzərinə vurulur.**)*

b) 2 ədəd fotoşəkil *(**3 x 4 ölçüdə**)*

**3) İMTAHAN TARİXİ VƏ YERİ:**

Qəbul imtahanı ***2025-ci il may ayının 31-də*** **VIII** siniflər üçün, ***iyun ayının 1-də*** isə **V** siniflər üçün ***TDV Bakı Türk Liseyinin*** binasında saat **10:00**-da keçiriləcək. İmtahan binasına giriş səhər saat **09:00**-dan başlanacaq.

**4) İMTAHAN FƏNLƏRİ VƏ İMTAHAN MODELİ:**

İmtahan **V sinif** şagirdləri üçün ***Azərbaycan dili, riyaziyyat, Azərbaycan tarixi , ingilis dili***,
**VIII sinif** şagirdləri üçün isə seçdiyi ixtisas qrupu üzrə ( **I qrup**: *Azərbaycan dili, ingilis dili, fizika, kimya, riyaziyyat*; **II qrup**: *Azərbaycan dili, ingilis dili, tarix, coğrafiya, riyaziyyat*; **III qrup**: *Azərbaycan dili, ingilis dili, tarix, ədəbiyyat, riyaziyyat*; **IV qrup**: *Azərbaycan dili, biologiya, fizika, kimya, riyaziyyat*) fənlərdən test üsulu ilə keçiriləcəkdir. Suallar Azərbaycan dilindədir.

**5) İMTAHAN NƏTİCƏLƏRİNİN ELANI:**

Qəbul nəticələri **15/06/2025**-ci il tarixində elan olunacaq.

**6) ƏLAVƏLƏR:**

İmtahana ancaq lisey müdiriyyəti tərəfindən ***buraxılış vəsiqəsi*** verilmiş şagirdlər buraxılacaqlar. (*İmtahan və şagird haqqında əsas məlumatlar buraxılış vərəqəsində qeyd ediləcəkdir*)

**İmtahan günündə gətirilməli olanlar:**
- İmtahana buraxılış vəsiqəsi
- 2H sərtliyində sadə karandaş (əlavə olaraq 1 ədəd silgi)
- Göy və ya qara diyircəkli qələm (əlavə olaraq 1 ədəd ağardıcı)


**TDV Bakı Türk Liseyi**

***Ünvan:*** *Nəsimi rayonu Bəsti Bağırova küçəsi ( Zabitlər parkının yanı )*

**Əlaqə telefonları:**
597 31 93 / 597 31 95
**Veb Sayt:**
tdv-btl.edu.az